**Azərbaycan Respublikası**
**"SANİTARİYA GİGİYENA DEZİNFEKSİYA XİDMƏTLƏRİ"**
***Məhdud Məsuliyyətli Cəmiyyət***

**Azerbaijan Republic**
**"SANİTARY HYGIENE DİZİNFECTİON SERVİCES"**
***Limited Liability Company***

*Tel; (+994 12) 595 38 11; Mob; (+994 55) 409 40 48*
*Sayt;www.sanitariya-gigiyena.az*

*Watsaap; (+99455) 409 40 48; Mob; (+994 55) 209 40 48*
*Email; agashafi@mail.ru*

**Salam, hörmətli Xanımlar və Cənablar.**

**Sanitariya Gigiyena Dezinfeksiya Xidmətləri MMC** olaraq, Sizlərə öz xidmətlərimizi təklif etmək istərdik.

Bizim şirkət 7(yeddi) ildən artıqdır ki cəm şəkildə, ayrı-ayrılıqda isə 25(iyirmi beş) ildən çox Azərbaycan Respublikarının ərazisində öz xidmətlərimizlə xalqımızın sağlamlığının qorunması məqsədilə çalışırıq. Xidmətimizi həyata keçirən zaman dünyada ən yeni və öndə gedən NANO texnoloji avadanlıqlarları və Ümudünya, Avropa standartlar protokollarına uyğun Sertifikatlaşdırılmış vasitələrilə ilə xidmətimizi həyata keçiririk.

***Bizim amalımız Sizlərin həyat sağlamlığını, komfortunu və təhlükəsizliyini qorumaqdır!***

**Sanitariya Gigiyena Dezinfeksiya Xidmətləri aşağıda qeyd olunan xidmətləri göstərir!**

**1. <u>Dezinfeksiya</u>** — (lat. Inficere - yoluxdurmaq) — xəstəlik törədən mikroorqanizmləri Virus, Mikrob, Bakteriya və Göbələklərin sağlam orqanizmə yoluxduran infeksiya mənbəyini məhv edərək zərərsizləşdirmək üçün aparılan üsulubdur. Dezinfeksiyanı həm infeksiya ocağında, həm də profilaktika məqsədilə aparırlar.

Nə vaxt aparılmasından və məqsədindən asılı olaraq infeksiya ocağında aparılan dezinfeksiya Cari və Son dezinfeksiyaya bölünür.

Cari dezinfeksiyanı infeksiyalı xəstənin, yaxud infeksiya gəzdirənin olduğu bütün müddətlərdə xəstənin işlədiyi (oturqu) yeri, çarpayısı yanında və onun ətrafında aparırlar. Cari dezinfeksiyada məqsəd infeksiyanı yayılmağa qoymamaqdır. Yoluxucu bağırsaq xəstəliklərində cari dezinfeksiyanın daha böyük əhəmiyyəti vardır. Xəstənin işlətdiyi əşyaları, onun dəyişəyini zərərsizləşdirirlər. Bəzən xəstənin yatdığı otağa ultrabənövşəyi şüalar verirlər.

Son dezinfeksiyanı infeksion xəstəlik ocağında xəstəni xəstəxanaya qoyduqdan, xəstə sağaldıqdan, yaxud öldükdən sonra aparırlar.

Profilaktika məqsədilə dezinfeksiya infeksion xəstəliyin olub-olmamasından asılı olmayaraq, onun qarşısını almaq üçün aparılır. Profilaktik dezinfeksiyaya otaqların havasını hər gün dəyişmək, müalicə-profilaktika və uşaq müəssisələrinin otaqlarını xüsusi kimyavi məhlulu ilə yuyub təmizləmək, əlləri tez-tez sabunla yumaq, xəstəlik törədiciləri ilə daimi mübarizə aparmaq aiddir.

Dezinfeksiya üsulları mexaniki, fiziki və kimyəvi olur.

Fiziki üsullara yumaq, silmək, dəyişmək, süpürmək və s. aiddir. Çirklə birlikdə xəstəlik törədicilərinin bir qismi də kənar edilir.

Mexaniki üsullardan ən çox qaynatma, həmçinin, xüsusi kimyəvi məhlullarla qaynatma və s. tətbiq edilir. Dezinfeksiya üçün soyuq və ya isti su buxarından da istifadə olunur. Su buxarından xüsusi NANO dezinfeksiya avadanlıqlardan, kameralarında və avtoklavlarda istifadə edirlər.

Kimyəvi dezinfeksiya üsulları daha çox yayılmışdır. Bunun üçün müxtəlif xüsusi kimyəvi maddələrdən: amonium xlorlu məhlullardan,  fenol, kreol, lizol, spirt, qələvi və turşulardan istifadə edilir.;

**2. <u>Dezodorasiya</u>** — kəskin xoşagəlməz qoxu və iylərin aradan qaldırılmasıdır**.**

Dezodarasiya  xidməti (aromatizasiya)  olduğu halda obyektdə olan kəskin xoşagəlməz qoxuların aradan qaldırılmasıdır. Belə iylər əsasən üzvi maddələrin, müxtəlif tullantıların heyvan və insan ifrazatının, qida qalığının və sair çürüməsindən əmələ gəlir. Üfunətli iylər həmçinin havalandırma sistemində güsur olduqda və yaxşı dəyişilməyən yerlərdə (idman zallarında, yeraltı sığınacaq, xəstəxanalar, yeməkxanalar, təlim tərbiyyə tədris ocaqları, ümumi ictimai istifadə obyektlərində və s) yerlərdə əmələ gələ bilər. Bəzi sənaye müəssələrində daimi olaraq spesifik iylər olur və bunları yalnız Dezodorasiya etməklə iyləri aradan qaldırmaq olar.

Üfunətli iy binaların və obyektlərin istifadəsində sanitariya qaydalarının pozulduğunu, obyektlərdə lazimi sanitariya-gigiyena tələblərin gözlənilmədiyini, yaxşı ventilasiya olmadığını, şəxsi sanitariya-gigiyena normativ qaydanlarının qaydanlarının pozulmasinin göstəricisidir;

**3. <u>Dezinseksiya</u>** — infeksion xəstəlikləri yayan həşəratların tələf edilməsi
Dezinseksiya həm məişətdə, həm də epidemiyaların qarşısını almaq üçün aparılır. Məişət dezinseksiyasına otağın dərmanlanması, milçəklərin, taxtabiti və tarakanların, həmçinin digər həşəratların artıb çoxaldığı yerlərin planlı surətdə dərmanlanıb, onların tələf edilməsi və s. aiddir.

Epidemik məqsədlə aparılan dezinseksiya yataq ləvazimatlarının Sterilizə olunaraq dezinfeksiya olunması, eləcə də infeksiya ocağındakı bütün olan adamların gigiyenik normalarına uyğun hahamda yuyunaraq dezinfeksiya olunmalıdırlar. Dezinseksiya fiziki, kimyəvi və bioloji metodlarla aparılır.

Fiziki metodlara əşyaların şotka, tozsoranla təmizlənməsi, çırpılması, yandırılması, qaynar suya salınması, tələ və yapışqanlardan istifadə edilməsi aiddir.
Kimyəvi dezinseksiyada insektisidlərdən (heksaxloran, xlorofos və s.) duru və bərk tələ yemlərindən istifadə edilir. Belə maddələr həşəratları məhv edir. Bəzi maddələrdən istifadə etməklə qansoran həşəratlardan qorunurlar.

Bioloji metodlar parazitləri məhv edən həşəratlardan, quşlardan, mikroorqanizmlərdən istifadə olunmasına əsaslanır.

Kimyavi üslub – ən geniş yayılmış üslubdur, çünki ən qısa mütdətdə zərər verici həşarat canlılardan qurtulma üslubudur;

**4. <u>Deratizasiya</u>** — infeksiya mənbəyi olan və onu yayan gəmiricilərin tələf edilməsidir..
Epidemioloji cəhətdən ən qorxulu gəmiricilər ev və çöl siçanları, boz və qara siçovullar, sünbülqıranlar, su siçanı və s.-dir. Bu zaman həm profilaktika işləri aparılır, həm də bunları tələf edirlər. Profilaktika məqsədilə ərzaq məhsullarını gigiyenik cəhətdən elə yerlərdə yerləşdirirlər ki, həmin gəmiricilər ora girə bilməsinlər. Gəmiriciləri bioloji, kimyəvi və mexaniki yolla qırırlar.

***Bioloji üsul*** onların düşmənlərindən pişiklərdən, itlərdən və s. istifadə edilməsidir.

***Mexaniki üsul*** isə tələlərdən istifadə olunmasıdır.

***Kimyəvi üsul*** müxtəlif kimyavi dərmanlardan isfadə edilir.

Bundan başqa, aldadıcı zəhərli yemlərdən istifadə edilir. Zəhərli aldadıcı yemləri sanepidemioloji stansiyanın xüsusi təlim keçmiş işçiləri hazırlamalı və işlətməlidirlər.;

**5. <u>Dekontaminasiya</u>** — insanın və ya heyvanın bədəninin səthində, istehlak üçün hazırlanmış məhsulun daxilində yaxud səthində və ya digər cansız əşyalarda, o cümlədən daşıma vasitələrində olan və əhalinin səhhəti üçün risk təşkil edən infeksion amilləri ləğv etmək, yaxud neytrallaşdırmaq məqsədi ilə tibbi-sanitariya tədbirlərinin həyata keçirilməsini müəyyənləşdirən prosedur Planın hazirlanması deməkdir.

**6. <u>Sterilizasiya</u>** — dezinfeksiyanın mühüm komponentlərindən biri sayılır. Sterilizasiya zamanı avadanlıqların və əşyaların mikroorqanizmlərdən tam azad olması, yəni patogen və qeyri-patogen törədicilərin vegetativ və spor formaları məhv edilir.

Sterilizasiya — dezinfeksiyanın mühüm komponentlərindən biri sayılır. Sterilizasiya zamanı avadanlıqların və əşyaların mikroorqanizmlərdən tam azad olması, yəni patogen və qeyri-patogen törədicilərin vegetativ və spor formaları məhv edilir. Adətən, sterilizasiya mexanikləşdirilmiş və fiziki üsulub ilə həyata keçirirlər.

Sterilizasiyanın Mexanikləşdirilmiş növü, yuma nəzərdə tutulan xüsusi təyinatlı yuyucu əl üsulu ilə yuma və ya püskürtmə yolu xüsusi təyinatlı vasitələrdən istifadə etməklə aparılır. Bu zaman əşyalar 0,5 dəqiqə axar su altında yuyulur, sonra yuyucu məhlulda 5-25 dəqiqə 18-50 °C-də isladılır, sonra isə axar su və distillə oluımuş suda yaxalanılır, və qurudulur. Sterilizasiyaönü işləmənin keyfiyyətini qiymətləndirmək məqsədilə 1 %-ə qədər məmulatlar qalıq qan və yuyucu vasitələrin qalma görə yoxlanılır.

Sterilizasiyanın Fiziki növü zərərsizləşdirilən üst geyimpaltarını, yataq örtüklərini, əşyaların obyektin keyfiyyətindən asılı olaraq isti quru hava, kimyəvi maddələrin məhlullarıdan və ionlaşdırıcı şüalar ilə xüsüsi avadanlıq vasitəsilə aparılır. Sterilizasiya başa çatdırıldıqdan sonra steril suya salınılaraq qurudulur.

**7. <u>Su Saxlama Anbar Çənlərinin Və Hovuzlarin Təmizlənməsi və Dezinfeksiyasi</u>**

Təmiz içməli su anbarlarının və hovuzların təmizlənməsi və dezinfeksiyası aşağıdakı problemləri həll etmək üçün aparılır:

- Çöküntü lil çirklərini, ərpin, yosunun meydana gəlməsi zamanı;
- Bakteriyaların, göbələklərin, infeksiyaların qarşısının alınması;
- Kimyəvi və zəhərli maddələrlə təmizlənməsi.

Anbarların təmizlənməsi proseduru ciddi ardıcıllıqla həyata keçirilməli olan bir sıra tədbirlərdən ibarətdir:

- Səthin tədqiqatı, analizi və planlaşdırılması;
- Daxili səthin təmizlənməsi, bütün çöküntülərin və çöküntülərin aradan qaldırılması;
- Suyun keyfiyyətinə təsir edən müxtəlif bioloji çöküntülərin müəyyən edilməsi və çıxarılması;
- Rezervuar üçün antibakterial tədbirlər;
- Mayenin keyfiyyət tərkibinə cavabdeh olan birləşmələrin və filtrlərin etibarlılığına diqqətlə nəzarət etmək;

- Duzların aradan qaldırılması.

Anbarların daxili səthinin təmizlənməsi üsulu iki mərhələdə həyata keçirilir: dezinfeksiya olunması və mexaniki təmizləmə.

Sanitar profilaktik təmizlik tədbirləri həyata keçirildikdən sonra, hövzədəki suyun nümunəsini labarotoriyaya göndərilməsi, labarotoriya analizinin cavabından aslı olaraq suyun istifadəyə yararlı olduğu halda AKTın tərtib olunması və istismara buraxılması.

**Sanitar Profilaktik Tədbirlərin Ardıcıllıq Proseduru və Sənədləşdirilməsi.**

- Mütəxəssis tərəfindən baxış keçirilir və mövcud vəziyət analiz olunur. (suallar cavablandırılır)
- Tərəfimizdən razılaşma əldə olduqdan sonra Müqavilə bağlanılır.
- GEM-ə və AZƏRSU-ya məktub yazılır.
- Tədbirin həyata keçirilməsu tarix təyin olunur.
- Tədbirə başladıqda, su anbarı yuyulur və təmizlənir, dezinfeksiya edilir, nümayəndələrin iştirakı ilə.
- Anbar 2 saat boş qalır sonra su ilə doldurulur.
- AKT tərtib olunur - AZƏRSU və GEM-in iştirakı ilə.
- Lisenziyanın nüsxəsi təqdim olunur.
- İstifadə olunan məhlulların uyğunluq sertifikarı təqdim olunur.
- Sudan nümunə götürülür, akkreditasiya olunmuş laboratoriyalardan cavab təqdim olunur.

**8. <u>CLEARNİNG</u> — Təmizlik xidmətləri:**

1. İnşaatla paralell kaba işləri (fəhlə xidməti)
2. İnşaatla paralell müntəzəm təmizlik xidməti.
3. İnşaat sonrası ümumi təmizlik xidməti.
4. Təmir sonrası ümumi təmizlik xidməti.
5. Ümumi təmizlik xidməti.
6. Müntəzəm təmizlik xidmətləri.
7. Xadimə xidməti.
8. Pəncərə və vitrinlərin yuyulması.
9. Daş örtüklərinin təmizlənməsi, kristallaşdırılması.
10. Sahələrin əsaslı və gündəlik təmizlənməsi, fəhlə xidməti.
11. Hovuz, fəvvarə, sauna, sanitariya qov. və s. təmizlik xidmətləri və dezinfeksiyası
12. Xüsusi təyinatlı avadanlıqların təmizliyi Kimyəvi təmizlik və yuyulma:
13. Yumşaq mebel dəstlərinin kimyəvi təmizlənməsi
14. Xalcaların yuyulması, kimyəvi təmizlənməsi.
15. Pərdələrin yuyulması, kimyəvi təmizlənməsi.
16. Pərdə, dekorativ tavan və divar örtüklərinin təmizlənməsi Sənaye Alpinizm xidmətləri:

**9. <u>Havalandırma Boru Xətlərinin Təmizlənməsi</u>** — Ventilasiya sistemin istismarı proses
i zamanı kondensasiya nəticəsində ventilasiya borusunun divarında yağ tullantıları və tozdan ibarət bərk qat yaranır.

Yüksək temperatorun və oksigenin təsiri ilə ventilasiya sisteminin mütamadi təmizlənməsi mütləqdir.

Biz yüksək texnoloji muasir tələblərə cavab verən avadanlığın texnologiyasının tədbiq etməklə ventilasiya borusunun daxilində yağlanmış yağ, çirk, toz və sair tulantılardan, ventilasiya sisteminin, ventilyator avadanlığının təmizləyirik və dezinfeksiya edirik.

Mütəxəsislərimiz tərəfindən video sistemin köməyi ilə ventilyasiya sisteminin vəziyyəti və çirlənmə dərəcəsi müəyyənləşdirilir.

Təmizlənmə prosesi aşağıdakı təsir vasitələri ilə aparılır:

- **Mexaniki təsir:** - şotka ilə pnevmatik təmizlənmə
- **Temperatur təeir:** - 60 C°-də köpüklə səpələmə
- **Kimyavi təsir:** - Yağ təmizləmə vasitədən istifadə etməklə.
- **Vaxt təsiri:** - Yağın getməsi üçün köpüyün müəyyən müddətə saxlanılması

***Bizim təmizləmə sistemimiz:***

- **Yağın riskini aradan qaldırır;**
- **Sistemini iş keyfiyyətini yaxşılandırır;**
- **Qadını zəhərlənmədən qoruyur**;

Ventilasiya sistemi təmizləndikdən sonra təmizləmə haqqında AKT tərtib olunur və xüsusi qeydlər aparılır.

**10. Laborator analizlər** — İstənilən bütün növ Laborator analizlərin aparılması. COVİD 19 virusuna analizlərinin götürülməsi.

Sanitar Profilaktik Tədbirlər zamanı istifadə etdiyimiz NANO avadanlıqlardır və dərmanların 4-cü və 5-ci nəsilli Türkiyyə, Rusiya, İngiltərə, Kanada, Amerika Almaniya, Fransa və digər avropa dölətlərində istehsal olunmuş EC - Avropa direktivlərinə uyğun və Azərbaycan Respublikasının Səhiyyə Nazirlıyı və xüsusi dövlət qurumları tərəfindən Sertifikatlaşdırılmışdır dərman vasitələrindən istifadə edirik, bu da o deməkdir ki, keçirilən tədbirlərin təhlükəsizliyi zəmanətin tək biz yox həmdə Ümumdünya Səhiyyə Təşkilatına daxil olan dövlətlər və təşkilatlar da verir!

***Sanitariya Gigiyena Dezinfeksiya Xidmətləri MMC tərəfdən həyata keçirilmiş Sanitar Tibbi Profilaktik Təmizlik Xidmətləri nəticəsində Sizin, sizin yaxıllarınızın və ailə üzvilərinizin, əməkdaşlarınızın, həmçinin xidmət göstərdiyiniz insanların həyatını və sağlamlıqlarını qorumuş olursunuz, bununla da vicdanınız və qanun qarşısında məhsum olursuz.***

**Hörmətlə,**
**"SANİTARİYA GİGEYENA DEZİNFEKSİYA XİDMƏTLƏRİ" MMC**

Direktor; Rəhimov Ağaşəfi A.